6 fevral / 2020

# «FƏLƏKDƏN GİLEYLİYƏM»

## Xalq şairi Zəlimxan Yaqubun ölümünə qəsidə-mərsiyə

*Ölüm yol tapıb gedir, qaraya, ağa sarı,*
*Dil çalır ilan kimi, sürünür bağa sarı.*
*Zəlimxan "dayan", - dedi, mənəm səni gözləyən*
*Dayanmışam zirvədə sürün gəl dağa sarı.*

Əli Rza Xələfli.

Kimsəyə sirr deyil ki, Zəlimxan Yaqub qeyri-adi istedadı ilə yaşadığı ömürdə hər kəsi heyran etdi, elə hər kəsi də bu heyranlıqla tərk etdi. O, yaddaş, ilham fenomeni idi. Belə bir həyat, insanlıq və ədəbiyyat fenomeni ilə Əli Rza Xələflinin tanışlığı da, dostluğu da, yaradıcılıq əlaqələri də hər kəsə təbii görünə bilər. Biz Əli Rzadan şöhrətin zirvəsində olan sənətkarla - Zəlimxan Yaqubla dostluğunun tarixindən danışmağı xahiş etdik: *«Zəlimxan haqqında öz sağlığında hansı tədbirdə, görüşdə danışırdımsa könlüm gülürdü. Hansısa tədbirdə çıxışımı nitqimə gələn bir bənd şeirlə başlamışdım:*

*Tarixin dilidi, yaddaşın gözü,*
*Sözü ildırımdı, dağları bölər!*
*Hardadı uca söz? - Allahın özü*
*Soruşsa deyin ki, Zəlimxan bilər.*

*Səhv eləmirəmsə tədbir Atatürk Mərkəzində idi. Professor Nizami Cəfərov çıxışımı bitirəndən sonra təqdir elədi. Ancaq dedi ki, deyəsən, o bəndi bədahətən dedin. O şeiri yazıb bitirərsən. Zəlimxanı tərənnüm edən, ədəbiyyatımız, poeziyamız üçün də dəyərli bir əsər olar. Zəlimxan haqqında başqa şeirlərim də var. Axı demək olar ki, mən Zəlimxanı 40 il idi ki, öyrənirdim. Qaldı ki, dostluğumuzun tarixi ilə bağlı sualınıza... bu barədə bir qədər sonra. Hələ ki, bir-iki kəlmə də ədəbi tənqidi yazılarımla da bağlı xülasə verim. Onda hər şey daha aydın görünər.*

*Mən Zəlimxan haqqında onun qeyri-adi şəxsiyyətini, fenomenal yaradıcılıq yolunu qismən əhatə edən iki kitab yazmışam. «Ölməzlik nəğməsi» adlı monoqrafiyam onun öz sağlığında qohumu və dostu Şakir Acalovun köməkliyi ilə işıq üzü gördü. İkinci kitabım «Sözün çağlar şəlaləsi» ədəbi-tənqidi düşüncələr kitabım isə nəşrini gözləyir. O, bu kitabın da hazırlanmaqda olduğunu bilirdi. Gün gələr işıq üzü görər. O ki qaldı, dostluğumuza... Bu, bir günün, bir anın işi deyil. Dostluq illərin bəhrəsidir. Bizim şəxsən ilk tanışlığımız hələ, mənim tələbə, onun gənc şair kimi parlamaqda olduğu zamandan başlanıb. Kitab pasajında işləyirdi. Şair Adil Babayevlə həmin pasajın foyesində görüş təşkil eləmişdi. Qələbəliyi görüb mən də içəri keçdim. Televiziyadan da çəkiliş vardı. Çıxışlar bir-birini əvəz elədi. Televiziya işçiləri dedilər ki, gənclərdən birinə Adil müəllim kitabını avtoqrafla bağışlasın, bir kadr çəkək. Çoxlu gənclər vardı. Zəlimxanın qırğı gözləri bir an gəzdi. Gördüm ki, birdən mənə tərəf yeridi. Yaxına gəlib məndən tələbə olub-olmadığımı soruşdu. Pedaqoji İnstitutda - filologiya fakültəsində oxuduğumu deyən kimi qolumdan tutub irəli çəkdi: Bu da siz deyən gənclərdən biri, buyurun çəkin. Həmin an, həmin gün sanki mənim yaradıcılıq taleyimi həll elədi. Zəlimxanın qolumdan tutub qabağa çəkməyi, böyük şair Adil Babayevin əlimi sıxıb avtoqrafla kitabını mənə bağışlamağı taleyimin mühüm hadisəsi kimi yadımdan çıxmır. Və illər keçdi tale məni tufanların qabağında çox qayalara çırpdı. Məhv olmadım. Daxilimdəki - ruhumdakı enerji, güc məni qoruyurdu. Baxmayaraq ki, yolumu dəfələrlə bədxahlarım kəsmişdi...*

*(Davamı 8-ci səhifədə)*

# «FƏLƏKDƏN GİLEYLİYƏM»

(Əvvəli 1-ci səhifədə)

*Axır ki, bir gün (1995-ci ildə) «Həyat» qəzetində işlədiyim günlərdə baş redaktor və xeyirxahım Firudun Rəsulov məni yanına çağırdı. Əlində Zəlimxan Yaqubun «Bir əli torpaqda, bir əli Haqda» kitabı vardı: "Görürsən, bu kitabı, götür, qəlbindən gələn bir yazı hazırla..." kitabı aldım, bir-iki gün oxudum, sonra təəssüratlarımı yazmaq istədim. Ha çalışdım bir şey çıxmadı. Elə bil ki, şairin zəhmi məni sıxırdı. Ruhi-psixoloji gərginlikdən çıxa bilmirdim. Birdən Firudun Rəsulov içəri girdi. Ağ kağıza, qələmə, bir Zəlimxanın kitabına və bir də mənim gərgin görkəmimə baxıb, irəli yeridi: - Əli Rza, bu nədi oturub ağ kağıza baxırsan, dur makinaya, yazını gözləyirəm.*

*Firudun müəllim bilirdi ki, mən yazılarımı birbaşa diqtə edirəm. İnamla dedi, elə bil mənə güc gəldi qalxıb makinaya getdim. İşlədəcəyim sitatları da nəzərə almışdım. Yazı makinadan çıxdıqca Firudun müəllim vərəqləri bir-bir götürürdü. Sonuncu vərəqi də apardı. Bir az keçməmiş məni çağırıb «sağ ol», - dedi. Çox əla yazmısan. Yazı çap olundu, oxuyanlar razılıq edirdilər. Başlığı - «Çaylar dağların kükrəyən ruhudur» olan bu yazıdakı təhlilləri, tezisləri ayrı-ayrılıqda şərh edənlər vardı. Bunlar məni sevindirsə də, bir nigarançılığım qalırdı. Axı şairin özünün rəyini bilmirdim. Bir gün nəşriyyatın qapısında üz-üzə gəldik. «O yazını sən yazmışdın?» - soruşdu. Dedim «bəli». Boynumu qucaqlayıb öpdü, sonra da dedi: «Çox yüklü yazı idi. Bilirsən, indi çoxları o ağırlığa getmir axı». Beləcə təzədən yaxınlıq zaman-zaman dostluğa çevrildi. Möhtəşəm Borçalı tədbirlərindən birində məni Borçalının fəxri vətəndaşı elan elədi. Deyəsən, bu da Borçalıdan olan ziyalı dostlarımın - Dədə Camalın, Hamlet və İsaxan İsaxanlı qardaşlarının və qeyrilərinin ürəyincə oldu. Zəlimxan Yaqub dəfələrlə evimizin sazlı-sözlü yığnaqlı qonağı olub. Sevdiyi, hörmət bəslədiyi adamları bizə dəvət eləməkdən çəkinməzdi. Bir gün Nizaməddini, Qurban Bayramı və prof. Qəzənfər Kazımovu axtara-axtara gəlib bizdə tapdı. «Mən də sizi axtarıram ki, buraya gətirim. Siz də burda». Aşıq Cahangirlə gələrdi, saz da döş-döşə durardı. Atam Zal Əziz oğlu ilə diz-dizə söhbətləri indi də gözlərimin önündədir. Qəzetimizin sevdalısı, təəssübkeşi və xeyirxahı idi. Mənimlə bağlı bütün tədbirlərdə iştirak edirdi. Dəvət olunduğu görüşlərə məni də aparırdı. Bir sözlə, Zəlimxanla bağlı sinəmdə bir kitab yatır, zaman-zaman sözə gələr» Xələfli hər xatirədən sonra bədahətən bir dördlük də deyir: «Ölüm yol tapıb gedir...»* **Biz həmin dördlüyü bu yazının epiqrafı kimi qəbul etdik.** Demək, Əli Rza həmin dördlükdə belə bir fəlsəfi qənaətini bildirir ki, zirvədə olanların ölümü yoxdur. Axı ilanlar zirvəyəcən sürünə bilməzlər. Əlbəttə, söhbət mənəvi ölümsüzlükdən gedir. Xalq şairi Zəlimxan Yaqub Əli Rzanın atası Zal kişinin ölümünə bir elegiya şeir də yazıb: **"Əzizim Əli Rza! Əlini öpüb gözümün üstünə qoyduğum, bal kimi şirin söhbətlərindən doymadığım rəhmətlik Zal kişinin xatirəsinə həsr olunan bu misralar (15.11.2007) qoy sizə bir Zəlimxan Yaqub təsəllisi olsun!**

*Bir el ağsaqqalı, bir dağlar oğlu,*
*Qarışdı torpağın lal məzarına.*
*Qəribin qürbətdə evi yıxılar,*
*Düşər xal üstündən xal məzarına.*

*Qız örtər başına qaradan şalı,*
*Oğulun zəhərə çevrilər balı.*
*Sahibsiz köhlənin tökülər nalı,*
*Dönər qapı-baca nal məzarına.*

*Saça qırov düşər, saqqal çal olar,*
*Bu halı duyanlar əhli-hal olar.*
*Hər çiçək islanmış bir dəsmal olar,*
*Qarabağ ağlayar Zal məzarına.*

***(Sabir Bəşirov, "Əli Rza Xələfli - 60", I cild, səh.172).***

Bu şeirə də əks-səda kimi Cəlilabaddan Əli Rzanın dostu Əlirza Həsrət bir şeirlə cavab verib. "Zal kişinin" adlı şeirini (01.12.2007) "şair Əli Rza Xələfliyə" epiqrafı ilə göndərib:

*Acısından göynəyənlər nə çoxmuş,*
*Bu hər sözü, kəlməsi bal kişinin.*
*El həsrəti, Vətən dərdi, ay Aman,-*
*Ürəyinə salmışdır xal, kişinin.*

*Ölüm sevdi bu məclislər şahını,*
*Sızlar qoydu Əli Rzanın ahını.*
*Buludlardan ala bilsən mahını,-*
*Çək üstünə bu əhli-hal kişinin.*

*Baxışların çən çiçəyi, sis gülü,*
*Oda düşdü bağrım, vurdu his gülü.*
*Ürəyində apardığı nisgili,-*
*Məzarında yurd oldu Zal kişinin.*

**(Sabir Bəşirov, "Əli Rza Xələfli - 60", I cild, səh.173).**

Bütün bunlar hardan, nədən qaynaqlanır? Cavab heç də çətin deyil. Əli Rzanın ədəbi cameədəki mövqeyindən. Professor Əsəd Rza Yaqubi onun yaradıcı aləminin sirrini belə açır: *«Əli Rza Xələfli! Bu vətəndaş 33 ildən çoxdur ki, mətbuat aləmində, necə deyərlər, sümük sındırır. Bu müddətin 14 ilini «Kredo» qəzetinə həsr etmişdir. O, imkan məhdduluğuna və bütün çətinliklərə baxmayaraq, «Kredo» qəzetini təkbaşına ayaq üstə saxlayır. Əqidə və inam uğrunda fədakarlıq edən bu vətəndaşda çətinliklərə qarşı bu inadkarlıq meylini, bu yorulmazlıq gücünü, bu işgüzarlıq atəşini yaradan nədir? Eşqdirmi? - Eşq müsbət ictimai işlərə yön alarsa, cəmiyyətin fəal hərəkətverici qüvvəsinə çevrilər, xariqələr yaradar. Sevib sevilmək üçün «sevgi» var, «məhəbbət» var. Eşq - bu mənəviyyat cövhəri varlığı daimi olmayan cazibəli görüntülərə yox, tarix boyu yaşayan mədəniyyətə, ümumxalq - bəşəri xidmət vasitələrinə, xoşniyyətli, xeyirxahlıq əməllərinin icrasına sərf edilməlidir. Əli Rza Xələfli sarsılmaz gücünü xalqına, eləcə də Azərbaycan mədəniyyətini cilvələndirən və bəşəri dəyərlər carçısı olan «Kredo» qəzetinin varlığına, onun yaşamasına bəslədiyi eşq mənbəyindən əldə edir. Görünür ki, «Kredo» qəzetinin «Tarix insanın əqidə və inam uğrunda mübarizəsidir» sərlövhəsinə sadiq olan Əli Rza Xələfli, əqidə və inam uğrunda mübarizə etməklə baş redaktoru olduğu «Kredo» qəzetinin tarixini yaratmaq əzmindədir»* **(Əsəd Rza Yaqubi «İnsan və həyat», Bakı-2014, səh.123-124).** Demək, eşq aləmi bir günəşli dünyadır ki, oradan insanlara daim nurlar, işıqlar axır. Bizim işıq tutduğumuz iki obraz - Zəlimxan Yaqub və Əli Rza Xələfli bu eşq aləmində - sözə vurğunluq dünyasında qovuşub və bir-birlərinin aləmlərinə qarşılıqlı işıqlar bəxş ediblər. Əli Rzanı *«Fələkdən gileyliyəm...»* **(10.01.2016)** qəsidəsinə gətirən yol zəngin xatirələr, ezazkar söz aləmlərindən keçib gəlib. O, Zəlimxanı həmişə ucada görüb. Onun haqqında dedikləri, yazdıqları solmayan həqiqət gülləridir:

Bütün buraya qədər yazılanlar **«fələkdən gileyli»** olmaq üçün Əli Rzaya bəs edəcək qədər «bəhanə»lərdir. Bütün poeziya örnəklərində olduğu kimi, qəsidədə də mövzu yaşanmış hisslərin təzahürü kimi ərsəyə gəlir. «Yox yerdən» də şeirlər və demək, qəsidələr də yazıla bilər. Ancaq könüllərdə bir titrəyiş yarada bilməz. Kimsənin ruhunu tərpətməyən əsərlər isə yaşamaq iqtidarında olmaz. Əli Rza Xələflinin böyük sənətkarın və həm də dostunun ölümündən keçirdiyi hisslərin həqiqi yaşantı olduğu hər misrada, hər sözdə duyulur. Çünki ağrı sözdən keçib oxucunun varlığına sarılır. Əsər oxunduqca xalqın - Vətənin necə böyük bir itki verdiyini heç Zəlimxanı görməyən, tanımayan da başa düşər.

Zəlimxan Yaqub ömrünün 66-cı ilində, yanvarın 9-da (2016) dünyasını dəyişib. Xələfli qəsidəni ağır xəbərin təsiri altında və bir gün sonra, yəni yanvarın 10-da yazıb. Özü də birnəfəsə... ayın 15-də çıxan «Kredo» qəzetində «2016» əvəzinə tarix «2015» göstərilib. Əlbəttə, bu, bir texniki xətadır. İlin əvvəlində köhnə ilin havasında olan texniki işçinin səhvidir. Əsas odur ki, oxucunu heyrətləndirəcək bir tezlikdə əsər araya-ərsəyə gəlib. Qəzetdə birinci hissənin yazıldığı bildirilir. Biz də əldə olan hissə ilə bağlı fikir və düşüncələrimizi bildirmək istərdik.

Qəsidə 34 beytdən ibarətdir. Ənənəvi bir ovqatla - qara xəbərin gətirdiyi ağır kədər təəssüratı ilə başlanır. Yəni kədərin lap zirvəsindən gələn səslər misralanmağa başlayır. Sözlər ovqatdan gələn əhvalı elə məntiqi çalarla təqdim edir ki, sanki biz bir zəlzələ olduğunu, yerin-göyün titrədiyini təsəvvür edirik. Özü də bu zəlzələ çoxbağlı təkanlar kimi bütün Azərbaycanı silkələyib. Dünyaya səpələnmiş soydaşlarımız da gəlib millətlə birgə ağlayan Azərbaycanın kədərinə, dərdinə şərik olmaq üçün dünyanın hava limanlarında növbəyə düzülüblər. Çünki onların da hər birinin qəlbində bir Zəlimxan zərrəsi var idi. O zərrələr də insanların ruhunda, varlığında dilə gəlib kədəri ağrıya çevirir. Təəccüblü deyil, çünki kədərin, qara xəbərin atı yüyrəkdir. Az vaxtda dünyanın hər yanına baş çəkə bilir. Bu xəbər sanki insanların ürəyini soyub, qəlbini libassız qoyub. Ona görə də insanlar ürəklərindən üşüyürdülər. Təmkinləri, dözümləri ağlar qoyan fələyin özü də pərişandır. O da təəssüflə küskün-küskün bir tərəfdən bu acı mənzərəni seyr edir. Sanki demək istəyir ki, məni günahkar tutmayın. Bu yoldan bir kimsə kənara çəkilə bilməz, çəkilsə belə yenə ağlar qalar. Dediklərimizin yaratdığı əhvalı əsərin özü daha yaxşı, bütün acılığı, ağırlığı ilə təqdim edər. Xalq şairi Z.Yaqubun ölümünə mərsiyə kimi yazılmış "Fələkdən gileyliyəm" qəsidəsi dörd misralıq lirik ovqatla başlanır:

*Ad var qış gətirər, ad da var bahar,*
*Könlümə yaz gəldi Zəlimxan dedim.*
*Açdı sinəsini kövrək duyğular,*
*Hər gələn duyğuya ürək, can dedim.*

Bundan sonra xalqın bütün varlığını titrədən qara xəbər yer-göy zəlzələsi kimi səda gətirir, sözlər dil deyib ağlayır, gözlər kədər seli axıdır:

*Yer titrədi, göy tutuldu, ölkə bütün can-can ağlar,*
*Təbriz, Bakı dilə gələr - Böyük Azərbaycan ağlar.*

*O tay ağlar, bu tay ağlar - göz yaşları Araz olar*
*Bir Araz da öz içindən, tökər qan-yaş, giryan ağlar.*

*Bir Zəlimxan parçalandı neçə yerə zərrə-zərrə*
*Ürəklərdə nura dönən indi hər Zəlimxan ağlar.*

*Təmkinləri, dözümləri ağlar qoyan fələk küskün,*
*Qəza-qədər yaxalasa ölümündən qaçan ağlar.*

*Dərdin ahı od qalayıb ocağında min can yanar,*
*Baxıb yerdə inləyənə göy üzündə uçan ağlar.*

*Ağır kədər libasında dərdin canı buz bağlayıb,*
*Ürəyindən soyulanlar tir-tir əsər, üryan ağlar.*

*Atı yüyrək qara xəbər ölkələrdən keçib gəldi,*
*Yaxın ağlar, uzaq ağlar, dörd tərəfdə hər yan ağlar.*

Bəzən şair o qədər sözləşir, yaxud sözə o qədər dirilik, canlılıq bəxş edir ki, özü ilə sözü arasındakı fərqi götürür. Sözü də canlı varlıq, lap elə insanın özü kimi görürük. Onun necə alovlandığını, dilinin-ağzının pörşələndiyini görmək iztirablıdır. Amma bu iztirablar bizi ədəbi obrazdan ayırmır. Əksinə, bizi ona daha da yaxınlaşdırır. Sözün alışıb yanması təsadüfi deyil, söz ustadının ölüm xəbəri onu belə dəli-divanə etmişdir.

*Öz içindən yanan sözün dili ağzı pörşələnər,*
*Od-alova büküldükcə köz-köz olar, büryan ağlar!*

Qəsidə qafiyəni tutan «Türyan» sözü var. Bu, İsmayıllı dağlarından gələn çayın adıdır, gəlib Kürə qovuşur. Zəlimxan Yaqub dağları sevən, dağlara vurğun şair idi. İsmayıllı dağlarında ev qurmuş, yayın istisində oradan üzü Muğana dünyanı seyr etməyi sevmişdi. İndi Türyan da ağlar qalıb:

*Borçalıdan gələn ellər, Kür boyunca əsən yellər,*
*İsmayıllı dağlarından haya gələn Türyan ağlar.*

Ayrılığın ən dərdli obrazını «Şəbi-hicran yanar canım, Tökər qan çeşmi-giryanım» - deyə Füzuli yaradıb. Xalq şairi Bəxtiyar Vahabzadə «Şəbi-hicran» adlı peoması ilə Füzuliyə heykəl-söz abidəsi yaradıb. Zəlimxan Yaqubun ayrılığı da xalq üçün bu dərdin, kədərin çəkilməzliyi, ağırlığı ilə görünür.

*Şəbi-hicran yarası var, ayrılığı çəkən bilər.*
*Vüsal bitdi, həsrət gəldi, sinəsindən yanan ağlar.*

*Adına bax «gedər-gəlməz» - kimlər qoyub, kimdən qalıb.*
*Dönüb bir cüt göyərçinə yollarına qonan ağlar.*

*Dönər illər ayrısına, yuxularda gələr-gəlməz.*
*Həsrətlərin soyuğunda, sazağında donan ağlar.*

Dərdin ağrısı, yanğısı bizi vurur, özümüzü bir anlığa Tanrı yanında olan Zəlimxanla üz-üzə görürük. Ancaq ona görə kədər bizi sıxır ki, Tanrı yanında olmaq nə qədər yaxşı olsa da, hələ vətənindən, xalqından ayrılıq tez idi. Xalqın sevgi buludu onun başının üstündə olsa da, bəlalardan onu qoruya bilmədik. Çingiz xanın haqqında bir əfsanə var: Ağ bulud onun başının üstündə kölgə salırdı. Çingiz xan sevgiyə qənim çıxan kimi o bulud yox olur. Ancaq xalq Zəlimxanı, Zəlimxan da xalqı axıracan sevdi.

(Davamı 9-cu səhifədə)

